Tarix və onun problemləri, №4 2009

**L.B.ATAKİŞİYEVA**
***BDU-nun əməkdaşı***

# ŞİMALİ KİPR TÜRK RESPUBLİKASININ İSLAM KONFRANSI TƏŞKİLATINDA İŞTİRAKI

13 fevral 1975-ci ildə Türkiyənin dəstəyi ilə yaradılmış Kipr Türk Federativ Respublikası dünya ictimaiyyətinin diqqətini Kiprin türk icmasına yönəltdi. Kipr Türk Federativ Respublikasının beynəlxalq aləmdə tanınması Türkiyənin xarici siyasətinin prioritetinə çevrildi. Soyuq müharibə şəraitində digər beynəlxalq təşkilatlarda Kipr Türk Federativ Respublikasının de-yure tanınmasına nail ola bilməyən Türkiyə əsas diqqətini bu məsələnin İslam Konfransı Təşkilatı çərçivəsində qabartmağa yönəltdi.

İslam Konfransı Təşkilatı (İKT) 1969-cu ilin 25 sentyabrında Rabat şəhərində müsəlman ölkə başçılarının konfransında təsis edilmişdir. Burada Fələstin Azadlıq Təşkilatının müşahidəçiləri də iştirak edirdilər. Tədbirdə İslam Konfransı Təşkilatının əsas məqsədləri bəyan edilmişdi: «Təşkilatın iştirakçıları arasında həmrəyliyi möhkəmləndirmək; onların arasında ictimai, siyasi, iqtisadi, sosial, mədəni və elmi sahələrdə əlaqələri inkişaf etdirmək; bütün müsəlman xalqlarının müstəqillik və milli hüquqları uğrunda mübarizəsinə köməklik; Fələstin xalqının öz hüquqlarını qorumaq, işğal olunmuş torpaqlarını geri qaytarmaq üçün köməklik göstərməkdir.» (7) Təşkilat həm də öz qarşısına belə məsələ qoymuşdu ki, hər cür formada irsi ayrı seçkilik və müstəmləkəyə qarşı çıxacaq, həmçinin ölkələr arasında dostluq münasibətləri yaradılmasına kömək edəcəkdir.

İslam Konfransı Təşkilatı 1975-ci ildən Birləşmiş Millətlər Təşkilatında müşahidəçi statusu almışdır. İKT-nin ali orqanı dövlət və hökumət başçılarının zirvə toplantısı, siyasi orqanı xarici işlər nazirlərinin konfransıdır. Təşkilatın icraçı orqanı olan Baş katiblik Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşir.

Bu təşkilat çərçivəsində Sovet meylli Suriya, Əlcəzair və islam dünyasına aid bir neçə ölkələrin Amerika meylli Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan qədər güclü mövqeləri yox idi. Bundan başqa bu təşkilatın əsas prinsiplərindən biri də islam həmrəyliyi idi ki, bu da Şimali Kiprin tanınması prosesinin inkişafı üçün mənəvi ideoloji bünövrə idi. Türkiyənin cəhdlərinin nəticəsi kimi İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 7-ci konfransında Kipr haqqında qətnamənin qəbul edilməsi oldu. Qətnamədə deyilir: «İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin 7-ci konfransı İstanbulda hicri təqviminə görə 1396 ilin Cumada əl-Əvvalın 13-16-da (12-15 may 1976-cı il) keçirilmiş, böyük maraqla əlahəzrət Rauf Denktaşın – Kipr türk icmasının liderinin nitqi dinlənildi, o öz xalqının qanuni hüquqları rifahı uğrunda apardığı mübarizədən danışırdı; Kipr türk müsəlman icmasının islam həmrəyliyi üçün öz töhfəsini vermək arzusu olduğu qeyd edildi; türk müsəlman icmasının bərabərhüquqlu icma kimi yünan-kipr icmasının partnyoru və ərazi bütövlüyü saxlanılan müstəqil, suveren Kipr Respublikasını dəstəkləyirdi; Türk müsəlman icmasının danışıqları Federativ Konstitusiyaya uyğun olaraq, dinc yolla nizamlanmasının, iki icma ararında dinc yolla yaşama cəhdlərini təqdir edirdi; Kipr probleminin həllinə qədər Kipr türk icması dünya miqyasında yunan icması ilə bərabərhüquqda tanınmaq üçün cəhdlər göstərmişdi; Kipr türk müsəlman icmasının bir nümayəndəsinin İslam Konfransı Təşkilatında iştirakı üçün dəvət almasına razılıq bildirilir.»(7)

Beləliklə, 1976-cı ildə Kiprin Türk icması İslam Konfransı Təşkilatında müşahidəçi statusunu alır. Şimali Kiprin nümayəndəsi - bir-çox hallarda Rauf Denktaşın özü İs-

lam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin konfranslarında, sammitlərdə və bir çox tədbirlərdə iştirak edirdi.(1, s.73)

1979-cu ilin oktyabrında Nyu-Yorkda təşkil olunmuş İslam Konfransı Təşkilatı ölkələri arasında fövqəladə konfransda qəbul olunmuş sənəddə Xalq Birliyi Partiyasının (XBP) Kipr konfliktinin nizamlanması üzrə apardığı siyasət müdaifə olunurdu.

XBP Kipr məsələsinin nizamlanması üçün mövcud reallıqlara əsaslanaraq, Kiprdə mərkəzi hakimiyyətin məhdud səlahiyyətlərə malik olduğu, iki icma administrasiyasının funksiyalarının geniş olduğu ikizonalı federasiyanın yaradılmasının tərəfdarı idi. Bütün Kipr-yunan qaçqınlarının öz evlərinə qayıtmasını Kipr-türkəhalisi üçün təhlükəsizli olması ilə əlaqələndirərək qeyri-mümkün hesab edirdilər. Ərazi güzəştləri ilə bağlı olan tələbləri inkar edir və hər iki icmanın əhalisinin adada sərbəst hərəkətinin, şəxsi əmlaka sahib olmağın hər iki tərəfin bir-birinə qarşı düşmənçiliyi olduğu üçün mümkünsüzliyi göstərilirdi. XBP-nın türk icmasının bütünlüklə təcrid olunmasına yönəldilmiş siyasəti İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirlərinin konfransında qəbul olundu. Konfransın sənədlərində Kipr məsələsi üzrə bildirilirdi ki, İslam Konfransı siyasi, iqtisadi və sosial cəhətdən bərabərhüquqlu olmasına əsaslanan ikizonalı, iki icmalı federal administrasiyasının yaranmasının tərəfdarıdır. Bir icma o biri icma üzərində hakimiyyət əldə etməməli və ya təzyiq göstərməməlidir. (5, s.38)

1981-ci ildə Məkkədə-Səudiyyə Ərəbistanında ilk dəfə olaraq Rauf Denktaşın iştirakı ilə sammit keçirilmişdi. İslam Konfransı Təşkilatı Kipr məsələsi üzrə 28 siyasi qətnamə qəbul edir, bununla bərabər, mədəniyyətə və iqtisadiyyata aid başqa qətnamələrdə qəbul edilmişdi. Məkkədəki bu sammitdən başlayaraq, bütün bundan sonraki baş tutmuş yeddi sammitdə Kipr məsələsi yekun sənədlərin siyasi hissəsinə daxil edilmişdi. Onu göstərmək lazımdır ki, İslam Konfransı Təşkilatının sənədlərinin ifadə olunması BMT-nin baş katibinin xoş məramlı missiyasının göstərdiyi danışıqlar, müzakirələr, təkliflər çərçivəsində olmuşdur. Beləliklə, demək olar ki, İslam Konfransı Təşkilatı Şimali Kiprin beynəlxalq aləmdə tanınması prosesinə start vermişdir.(1, s.73-74)

1997-ci ilin dekabrında Tehranda yüksək səviyyədə təşkil olunmuş İslam Konfransı Təşkilatının 8-ci görüşü Ankara üçün fövqəladə vacib bir hal olmuşdur. Bu, Kiprdə yaşayan bütün insanların bərabərhüquqlu olmasını tanıyaraq və türk icmasına himayə edilməsini bəyan edirdi. (3,s.29)

Şimali Kipr Türk Respublikasının xarici siyasi müvəffəqiyyəti 2004-cü ilin 14-16 iyununda İstanbulda keçirilən İslam Konfransı Təşkilatına üzv ölkələrinin Xarici İşlər Nazirlərinin 31-ci sessiyasında qəbul etdiyi qərar idi. Bu qərarda Kipr-türk müşahidəçisinin İKT-də əvvəlki icma statusundan Kipr Türk hökuməti statusuna qalxmağını əks etdirirdi. Analoji qərar Mərkəzi Asiya ölkələrinin İqtisadi Əməkdaşlıq Təşkilatlarında da qəbul olunmuşdu. 2004-cü ilin sentyabrında Düşənbə şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin 8-ci sammitində Kipr Türk hökumətinin müşahidəçi statusu məsələsi qalxmışdır. (2)

2005-ci ilin 28-30 iyununda Yəmən Respublikasının Sana şəhərində İslam Konfransı Təşkilatına üzv ölkələrinin Xarici İşlər Nazirlərinin 32-ci sessiyasında Azərbaycan Respublikasının Xarici İşlər naziri E.Məmmədyarov çıxış edərək bildirmişdir ki, Azərbaysan hökuməti təəssüf edir ki, BMT Baş katibi Kofi Annanın Kipr planı Kipr yunanları tərəfindən qəbul edilməmişdir. Beynəlxalq birliyin bu məsələyə, xüsusən də Kipr türk icmasının ehtiyaclarına müvafiq diqqətin olmaması bir daha özünü göstərdi. Nazir qeyd etmişdir ki, Türkiyənin bu məsələnin hərtərəfli həllinə yönəlmiş səylərini dəstəkləyir.(8)

Şimali Kipr Türk Respublikasının xarici siyasətində əsas yeri müsəlman aləmi ilə münasibətlərin inkişafına verilmişdi. İslam Konfransı Təşkilatında Türkiyənin sədrliyi

dövründən istifadə edən Kiprli türklər bu təşkilata üzv olan ölkələrlə əlaqələri daha da genişləndirmişlər. 2006-cı ilin mart ayında Türkiyənin təşəbbüsü ilə Şimali Kipr Türk Respublikasında bir qrup ölkə səfirləri və İslam Konfransı Təşkilatının üzvləri adada vəziyyətlə tanış olmaq üçün dəvət olunmuşdular. Bu nümayəndə heyətinin tərkibinə Azərbaycan, Qırgızıstan, Qazaxıstan, Oman, Banqladeş və Əfqanıstan səfirləri daxil idi. Suriya və Misirin səfirləri yalnız Kipr Respublikasının legitimliyi haqqında BMT qərarına hörmət etdiklərini bildirərək bu səfərdən imtina etmişdilər. İran səfiri bildirmişdi ki, bu səfərdə iştirak edə bilməyəcək, çünki ABŞ-ın buna neqativ münasibət göstərməyindən ehtiyat edir. Nümayəndə heyətinin tərkibinə baxmayaraq (rəhbər- İKT BK köməkçisi) Kipr türk icmasının rəhbərliyi ilə görüş Şimali Kipr Türk Respublikası ilə münasibətləri normallaşdırılmasına dair heç bir real addımlar atılmamışdır.(5)

2006-cı ilin aprel ayında İstanbulda İslam Konfransı Təşkilatının 4-cü Parlament sammiti keçirilmişdi. Türkiyənin Böyük Millət məclisi tərəfindən təşkil olunmuş iki günlük konfransında İslam Konfransı Təşkilatına daxil olan 48 ölkənin parlament başçıları, həmçinin on beynəlxalq və regional təşkilat rəhbərləri iştirak etmişdilər.(6)

Konfransın açılışında Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan çıxış edərək islam ekstremizminə qarşı mübarizədə gücləri birləşdirməyə və qərb ölkələrinə müraciət edərək islamafobiyadan imtina etməyə çağırdı. Türkiyə ictimai televiziyası qeyd etmişdi ki, Türkiyə yeni təşəbbüs ilə çıxış edərək Şimali Kipr Türk Cümhüriyyətinin adını Kipr Türk Respublikası adına dəyidirilsin. Bu haqda mətbuat konfransı zamanı Türkiyə Millət məclisinin sədri Bülənd Arınç xəbər vermişdi. O, bildirmişdi ki, İKT üzvü olan ölkələr Şimali Kipr Türk Respublikası adının dəyişdirilməsi təklifini müsbət qiymətləndiriblər.

Avropa Şurasının üzvü olaraq ümumi Kipr Respublikası Amerikanın «Böyük Yaxın Şərq» proqramı ilə ziddiyyət təşkil edir. Türkiyə çalışır ki, adanın türk hissəsini təcrid olunmaqdan qurtarsın, bu da son zamanlar müəyyən cavabını tapır. Bu halda Türkiyəni Şimali Kipr Türk Cümhuriyyətinin adının dəyişdirilməsi fikri ilə çıxış etməyə ruhlandırmışdı. Bu təşəbbüsün İslam Konfransı Təşkilatı çərçivəsi daxilində müzakirə olunması, Kipr Türk Respublikasının tanınması məsələsinin beynəlxalq səviyyədə müzakirəsinə gətirib çıxarılması üçün zəmin yaradır.

İclasın sonunda məclisin sədri bildirmişdi ki, «Şimali Kipr Türk Respublikası artıq İslam Konfransı Təşkilatında müşahidəçi rolunda fəaliyyyət göstərir və Kipr türk müsəlman icmasının nümayəndəsidir. BMT baş katibi Kofi Annanın proqramına cavab olaraq və təşkilatın müxtəlif mərhələlərində qəbul olunan qərarların təşəbbüsü islam ölkələrinin təşəbbüsü ilə eynidir.» (6)

2006-cı ilin 19-21 iyununda Bakıda İslam Konfransı Təşkilatına üzv ölkələrin Xarici İşlər Nazirlərinin 33-cü sesiyasında Türkiyənin «Kipr-türk müsəlman icmasının» «Kipr-Türk dövləti» adına dəyişdirilməsi barədə təklifləri bəyənildi. Lakin buna baxmayaraq Şimali Kipr Türk Respublikasının statusu İslam Konfransı Təşkilatında real dəyişikliyə uğramadı, Şimali Kiprlə bağlı diplomatik və ticari əlaqələrlə bağlı məsələ qaldırılmadı. İclasda görülmüş işlərin nəticəsi olaraq Şimali Kipr Türk Respublikası ilə bağlı bəyənnamə qəbul olundu. Burada adanın Kipr Türk icmasının qanunsuz təcrid olunması bildirilirdi və 2004-cü ildə BMT baş katibinin təklif etdiyi plan əsasında hər iki icmanın bərabərhüquqluğunu gözləyərək adadakı vəziyyəti tarazlaşdırmağın vacibliyi bildirilirdi.

Bəyannamədə deyilirdi ki, İslam Konfransı Təşkilatı Kipr probleminin nizamlanmasının əsas prinsipi kimi hər iki icmanın bərabər hüquqlarının olmasını təsdiqləyir; texniki komitələrin yaradılmasını təsdiqləyir; kipr-yunan icmasının adada vəziyyətin nizamlaması yollarında təşəbbüs göstərməməsinə təəssüf etdiyini bildirir; beynəlxalq

ictimaiyyəti Kipr probleminin BMT-nin baş katibi Kofi Annanın planı əsasında nizama salınması üçün kipr-yunan tərəfinə təzyiq göstərməyə çağırır; beynəlxalq ictimaiyyəti adanın Kipr-Türk icmasının təcrid olunmasının aradan qaldırmaq üçün tədbir görməyə çağırır; İKT-na üzv ölkələri Kiprdə yaşayan türk-müsəlmanlarına həmrəylik göstərməyə və onlara maddi, siyasi kömək göstərilməklə təcrid olunmadan qurtarmağa və bütün sahələrdə əlaqələrin inkişafına kömək etməyə çağırır; İKT-na üzv ölkələri iş adamlarından ibarət nümayəndələrinin Şimali Kipr Türk Respublikasına işgüzar səfər təşkil etməyə, turizm sahəsində, informatika texnologiyaları, mədəni əlaqələr, yüksək təhsil sferasında əməkdaşlıq etməyə çağırır; İKT üzvlərinə yüksək vəzifəli nümayəndə eətlərinin Şimali Kipr Türk Respublikasının səfərlərini təşkil etmək tövsiyə olunur; adada vəziyyətinin nizamlanmasına qədər Kipr-türk icmasının müdafiə etmək niyyəti bir daha təsdiq edir; problemin həllolma yollarını dünya ictimaiyyətinə nəzərə çadırılması prosesini təmin edəcək; İKT-nın baş katibi təklif edir ki, Kiprin şimalında həyata keçirilən layihələrin inkişafı üçün İslam bankı öz işini davam etdirsin; Kipr-türk tərəfinin İKT-də bərabərhüquqlu üzv olması məsələsinə baxılsın.

Ümumiyyətlə, 2005-2006-cı illərdə Türkiyə İKT-də öz sədrliyini Şimali Kipr Türk Respublikasının maraqlarının inkişafında istifadə edib. Kipr-türk icmasının nümayəndələri İKT-nin işində iştirak edərək müsəlman dövlətləri ilə münasibətlərin rəsmi əlaqələrə çevrilməsinə və öz diqqətlərini bu əlaqələrin inkişafında yönəltmişdilər. Kiprtürk və Türkiyə rəhbərliyinin səyi nəticəsində İKT katibliyində adada vəziyyətin nizamlanma prosesinin BMT çərçivəsində intensivləşdirilməsi prosesi üçün təşəbbüs göstərməkdir.

### *ƏDƏBİYYAT:*

1.Гаджиев Ф.Независимость де-факто. Турецкая Республика Северного Кипра. М., Regnum, 2008, 176 с.
2.Европа, США, Турция и Азербайджан признают "непризнанную" Турецкую Республику Северного Кипра. - http://www.yigor.ru/
3.Зиганшина Г.М. Об участии Турции в Организации Исламская Конференция.// Ближний Восток и современность. Сб.статей (выпуск девятнадцатый). М., Институт Востоковедения РАН, 2003, 290 с.
4.Турция: История, экономика, политика: Сб. ст. /АН СССР, Ин-т востоковедения; Редкол.: В. И. Данилов (отв. ред.) и др. -М., Наука, 1984, 255 с.
5.Юрьев М.М. Внутриполитическая обстановка в Турецкой Республике Северного Кипра // Ближний Восток и современность. Сб. статей. М., 2006 -http://www.iimes.ru/
6.Меняется название «Турецкой республики Северного Кипра» -http://www.turkey.ru/
7.http://www.oic-oci.org/
8.http://www.mfa.gov.az/

**Л.Б.АТАКИШИЕВА**

## ОБ УЧАСТИИ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ СЕВЕРНОГО КИПРА В ОРГАНИЗАЦИИ ИСЛАМСКАЯ КОНФЕРЕНЦИЯ

Провозглашение 13 февраля 1975 года Турецкого Федеративного Государства Кипра при поддержке Турции привлекло внимание мировой общественности к турецкой общине Кипра. Усилия по признанию турецкой администрации Северного Кипра были сконцентрированы на Организации Исламская конференция

Таким образом, в 1976 г. турецкая община Кипра получила статус наблюдателя в ОИК, принимал участие в последующих конференциях министров иностранных дел, саммитах и прочих мероприятиях организации. В результате усилий турко-кипрского и турецкого руководства в секретариате ОИК рассматривается возможность выдвижения инициативы в рамках ООН по интенсификации процесса урегулирования ситуации на острове.

Tarix və onun problemləri, №4 2009

L.B.ATAKISHIYEVA

## ABOUT PARTICIPATION OF TURKISH REPUBLIC OF NORTHERN CYPRUS IN THE ORGANIZATION OF THE ISLAMIC CONFERENCE

The declaration the Turkish Federative State of Cyprus with support of Turkey was drawn on 13 February 1975 by attention of world community to a Turkish community of Cyprus. Efforts by a recognition of Turkish administration of Northern Cyprus have been concentrated on the Organization of the Islamic Conference.

Thus, in 1976 the Turkish community of Cyprus has received the status of the observer in OIC, took part in the subsequent conferences of the Ministers of Foreign Affairs, the summits and the other actions of the organization. As a result of efforts of the Cyprian-turkic and Turkish management in secretary OIC possibility of promotion of the initiative within the limits of the United Nations on an intensification of process of settlement of a situation on island is considered.

***Rəyçilər: t.e.n. S.Ruintən, t.e.d.S.Hacıyev.***
***BDU Tarix fakültəsi Türk və Qafqaz xalqları tarixi kafedrasının 08 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***